# *İcma:* "Ermənistanın özünü beynəlxalq hüquqa sadiq tərəf kimi göstərməsi "timsah göz yaşları" tökməkdən başqa bir şey deyil"

**"Ermənistanın baş naziri Nikol Paşinyan son müsahibəsində növbəti dəfə yalan danışmış və Azərbaycana böhtan atmışdır. Bu, həmin Ermənistandır ki, 30 il ərzində beynəlxalq hüququ, BMT Nizamnaməsini, elə Nikol Paşinyanın xüsusi olaraq istinad etdiyi 1991-ci il Almatı Bəyannaməsini pozaraq Azərbaycan ərazilərini işğal etmişdir. Bu, həmin Ermənistandır ki, 2022-ci ilin sentyabr ayına qədər siyasi leksikonunda "ölkələrin ərazi bütövlüyü və suverenliyi" ifadəsi yer almamışdır".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda bildirilib ki, 2019-cu ildə vaxtilə işğal edilmiş ərazilərdə "Qarabağ Ermənistandır və nöqtə" deyən, Vətən müharibəsi zamanı Azərbaycan ərazilərində hərbi toplantılar keçirib hücum əmri verən, biz qərbi azərbaycanlıların qayıdış hüququnu inkar edən bir şəxsin Azərbaycanın qələbəsindən sonra acınacaqlı vəziyyətə düşərək indi özünü beynəlxalq hüquqa sadiq tərəf kimi göstərməsi "timsah göz yaşları" tökməkdən başqa bir şey deyil.

"Bir yandan "Qarabağı Azərbaycan ərazisi kimi tanıyırıq" deyib, o biri tərəfdən 2021-2026-cı il üzrə Ermənistan hökumətinin fəaliyyət planında "Dağlıq Qarabağın statusu", "xilas naminə ayrılma" kimi Azərbaycanın suverenliyini təhdid edən qondarma ifadələrə yer verməklə, beynəlxalq məhkəmələrə iddialarda Qarabağı Azərbaycandan kənar bir ərazi kimi təqdim etməklə sülh müqaviləsi olmur", - deyə bəyanatda qeyd edilib.

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 13 fevral, № 32.- S.7.